# Bəbir Hüseynov - 90



Hörmətli Bəbir müəllim!

Sizi - tanınmış yazıçı-publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü ildə Ağdam Pedaqoji Məktəbini bitirib, müəllim kimi əmək fəaliyyətinə başlamısınız. 1964-cü ildə Bakı Dövlət Universitetinin tarix fakültəsindən məzun olmusunuz. Uzun müddət pedaqoji fəaliyyətlə məşğul olduqdan sonra Azərbaycan KP Ağdam rayon Komitəsində əvvəlcə təlimatçı, sonra şöbə müdiri vəzifələrində işləmisiniz. 1979-1998-ci illərdə "Lenin yolu", "Ağdam" qəzetlərinin baş redaktoru olmusunuz. 1993-cü ildə Ağdam işğal edildikdə "Ağdam" qəzetini Bərdə şəhərində dərc etdirmisiniz. Qarabağ həqiqətlərinin ictimaiyyətə çatdırılmasında qəzetin böyük xidməti olub. Köçkünlüklə əlaqədar Bakıya gəlmiş, burada jurnalistlik fəaliyyətinizi davam etdirmisiniz. "Ömürdən qalan izlər", "Qarabağın tarixindən səhifələr" kitablarının müəllifisiniz. Sonuncu kitab xüsusilə qiymətlidir. Beş bölmədən ibarət olan kitabın birinci bölməsində Qarabağın etimologiyası, ərazisi haqqında, ikincidə ən qədim dövrdən xanlığa qədərki tarixindən, üçüncü bölmədə Qarabağ xanlığından, dördüncüdə Gülüstan və Türkmənçay müqavilələrinin xalqımızın taleyinə vurduğu zərbədən, sonuncu bölmədə ermənilərin əsassız torpaq iddialarından, törətdikləri vəhşiliklərdən, Qarabağ müharibəsi və tarixi qələbəmizdən bəhs edilir.

Hörmətli Bəbir müəllim!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

**Ədəbiyyat qəzeti.- 2022- ci il.- 24 dekabr.- S. 32.**